## *İmran Həsənovun yaratdığı Aşıq havalarının tipoloji xüsusiyyətləri*

**Əskərova Nilufər (ADMİU)**
**Fakültə: Musiqi sənəti**
**İxtisas: Etnomusiqişünaslıq**
**Kurs: II**
**Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar incəsənət xadimi, professor Kamilə Dadaşzadə**

Aşıq yaradıcılığı Azərbaycan ədəbiyyatının və musiqisinin ən güclü və əsas qollarındandır. Azərbaycan aşıq sənətinin inkişafında müxtəlif mühitlərin rolu vardır. Aşıq sənətinin inkişafında öz xidmətlərinə görə fərqlənən mühitlərdən biri də Tovuz aşıq mühitidir. Tovuz aşıq mühitinin əsas yaradıcı xüsusiyyətlərindən biri odurki, bu məktəbin nümaəndələri aşıq musiqisinə yeni havaların yaradıcısı kimi daxil olmuşlar.

İmran Həsənov 1928-ci ildə Ağbulaq kəndində anadan olmuşdur. Aşıq İmran hələ uşağikən saza meyl etməyə başlamışdır. Aşıq İmranın yaratdığı havalara: " İmran divanisi", "Ağbulağı", "Sahibi", "Səlvinazı", "Baharı", "İmran Koroğlu", "Solmazı" havalarını misal göstərmək olar.

**"İmran Koroğlu"** havası öz cəsarətli, döyüşkən, vətənpərvər ruhlu xarakter xüsusiyyətilə seçilir. Aşıq İmran "Koroğlu" havalarının mahir ifaçısı olmuşdur. Aşıq İmranın "İmran Koroğlu" havası ümumi kökdə ifa olunur. Hava ritmik, gumrah xarakterə malikdir. Poetik baxımdan hava gəraylı şeir şəklindədir.

Aşıq İmran "Bəhri divani" havasını **"İmran divanı"** adı ilə ifa etmişdir. "Bəhri divani" havası orta pərdə kökünə əsaslanır. Hava poetik xüsusiyyət baxımından gəraylı şeir şəklindədir.

**"Ağbulaq"** havasını Aşıq İmran öz doğulub,boya-başa çatdığı Göyçə mahalının Ağbulaq kəndinə həsr etmişdir.Bu havada aşığın öz

doğma el-obasına olan həsrətinin hissi duyulur. "Ağbulaq" havası orta pərdə kökünə əsaslanır. Hava poetik baxımdan qoşma üstünə oxunur.

**"Solmazı" havası.**Aşıq İmran bu havanı öz qızı Solmaz xanıma həsr etmişdir. Hava orta kökdə ifa olunur. Bu havaya poetik baxımdan həm müxəmməs, həm də divani şeir şəklini oxumaq olur. Bu havanın ikinci adı "İmran müxəmməsi" adlanır. Məqam tonal əsası "Rast məqam ailəsinə daxil olan mahur hindi"məqamına əsaslanır.

**"Baharı"** havasını Aşıq İmran qızı Bahara həsr etmişdir. Hava müəllif tərəfindən Aşıq İmranın öz səs yazısı vasitəsilə nota köçürülmüşdür. Hava ümumi pərdə kökünə əsaslanır.Poetik baxımdan qoşma şeir şəklinə əsaslanır.

**"Səlvinazı"** havasını ustad öz həyat yoldaşı Səlvinaz xanıma həsr etmişdir. Hava müəllif tərəfindən nota köçürülmüşdür. "Səlvinazı" havasının ifası ümumi kökə əsaslanır. Hava poetik baxımdan gəraylı şeir şəklində ifa olunur.